# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 509** **Bakı şəhəri, 28 noyabr 2018-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasını təşkil etmək tədbirləri barədə" 1992-ci il 9 iyun tarixli 321 nömrəli, "Ümumtəhsil internat məktəblərinin nümunəvi əsasnaməsinin təsdiq edilməsi haqqında" 1994-cü il 5 may tarixli 176 nömrəli, "Ali və orta ixtisas təhsili müəssisələrinin fəaliyyəti ilə bağlı Əsasnamələrin təsdiq edilməsi haqqında" 1995-ci il 6 noyabr tarixli 242 nömrəli, "Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş işçilərə sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 1998-ci il 15 sentyabr tarixli 189 nömrəli, "Xüsusi təhsil müəssisələri haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2002-ci il 10 may tarixli 78 nömrəli, "Ətrafdakıları vərəmlə yoluxdurmaq təhlükəsi olan şəxslərin işləməsi qadağan olunan peşə və vəzifələrin Siyahısı"nın təsdiq edilməsi haqqında" 2003-cü il 6 dekabr tarixli 157 nömrəli və "Sağlamlıq imkanları məhdud şəxslər üçün məktəbəqədər xüsusi təhsil müəssisələri haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2004-cü il 4 mart tarixli 24 nömrəli qərarlarında dəyişikliklər edilməsi haqqında***

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1189-VQ nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 iyul tarixli 164 nömrəli Fərmanının 1.2-ci və 1.4-cü bəndlərinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

**1.** "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasını təşkil etmək tədbirləri barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 9 iyun tarixli 321 nömrəli Qərarının 1-ci hissəsində "qəbul planı" sözləri "ali təhsilin bakalavriat və magistratura səviyyələrinə qəbul "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, doktoranturaya qəbul isə" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 5 may tarixli 176 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ümumtəhsil internat məktəblərinin nümunəvi əsasnaməsi"nin 53-cü hissəsinin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Psixoloji xidmətin təşkili qaydaları Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.".

**3.** "Ali və orta ixtisas təhsili müəssisələrinin fəaliyyəti ilə bağlı Əsasnamələrin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 6 noyabr tarixli 242 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 3, maddə 264; 2017, № 4, maddə 654) birinci abzasında "(əlavə 1 - 8)" sözləri "(əlavə 1 - 4, 7)" sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 sentyabr tarixli 189 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 596; 2000, № 10, maddə 764; 2001, № 3, maddə 214; 2003, № 6, maddə 342; 2005, № 7, maddə 661, № 9, maddələr 857, 858, № 12, maddə 1244; 2006, № 1, maddə 58, № 3, maddə 291, № 4, maddə 370, № 9, maddələr 819, 821, № 10, maddələr 902, 903; 2007, № 2, maddələr 185, 188, № 5, maddə 544; 2008, № 2, maddələr 114, 129, 130, № 9, maddə 853, № 10, maddə 857; 2010, № 3, maddələr 263, 264, № 8, maddə 763, № 12, maddə 1123; 2011, № 5, maddə 449, № 7, maddə 742; 2012, № 2, maddə 180, № 7, maddə 773; 2014, № 4, maddə 459; 2016, № 7, maddə 1343, № 11, maddə 1973; 2017, № 4, maddə 610, № 5, maddə 995, № 9, maddə 1728, № 10, maddə 1913, № 12 (II kitab), maddə 2548; 2018, № 6, maddə 1348, № 9, maddə 1903) ilə təsdiq edilmiş "Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş işçilərə sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

4.1. 46-cı hissənin üçüncü abzasına "uşaq evlərində," sözlərindən sonra "inteqrasiya təlimli internat tipli təhsil müəssisələrində" sözləri əlavə edilsin;

4.2. 88-ci hissədə "xüsusi uşaq bağçası" sözləri "sanator tipli məktəbəqədər təhsil müəssisəsi, sağlamlıq imkanları məhdud olan uşaqlar üçün xüsusi məktəbəqədər təhsil müəssisələri" sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 10 may tarixli 78 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 315; 2005, № 3, maddə 255; 2007, № 2, maddə 185; 2009, № 10, maddə 857; 2017, № 4, maddə 629, № 10, maddə 1910, № 12 (II kitab), maddə 2518; 2018, № 5, maddə 1150) ilə təsdiq edilmiş "Xüsusi təhsil müəssisələri haqqında Əsasnamə"nin 65-ci hissəsinin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Psixoloji xidmətin təşkili qaydaları Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.".

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 6 dekabr tarixli 157 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 12 (II kitab), maddə 745; 2010, № 3, maddə 264) ilə təsdiq edilmiş "Ətrafdakıları vərəmlə yoluxdurmaq təhlükəsi olan şəxslərin işləməsi qadağan olunan peşə və vəzifələrin Siyahısı"nın 1.2-ci və 2.2-ci bəndlərində "uşaq bağçaları, körpələr evləri və körpələr evi-uşaq bağçaları" sözləri "məktəbəqədər təhsil müəssisələri" sözləri ilə əvəz edilsin.

**7.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 4 mart tarixli 24 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 3, maddə 191; 2007, № 2, maddə 185; 2008, № 2, maddə 130; 2009, № 10, maddə 857; 2012, № 3, maddə 255; 2017, № 10, maddə 1912; 2018, № 5, maddə 1149) ilə təsdiq edilmiş "Sağlamlıq imkanları məhdud şəxslər üçün məktəbəqədər xüsusi təhsil müəssisələri haqqında Əsasnamə"nin 41-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"41. Məktəbəqədər xüsusi təhsil müəssisələrində psixoloji xidmət təşkil olunur. Psixoloji xidmətin təşkili qaydaları Azərbaycan Respub-likasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.".

***Novruz MƏMMƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***